Baş redaktor: Şəhla Qəmbərova
Redaktor: Aynur Turan
Korrektor: İlahə Quliyeva
Bədii tərtibat: Aqil Tağıyev

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Jurnalın üz qabığındakı foto: Xatirə Hümbətli

web: www.clb.az
facebook: fb.com/childlibazerbaijan
twitter.com/childlibaze
instagram: childlibazerbaijan
youtube: childlibazerbaijan



F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

Qeydiyyat nömrəsi:
№ 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.

Təşkilati dəstək:
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

# Göy Qurşağı

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
№ 03 (83) / 2024





# “Açıq dərs - Açıq fikir”

## layihəsi çərçivəsində bilik yarışması

Salam dostlar! Bu mənəm, İncəhörüm. Çoxsaylı məktublarınızdan bilirəm ki, məndən xəbər tutmaq istəyirsiniz ki, mən hardayam. Yay istirahətindəyəm. Bu yay günlərində çoxlu kitab oxudum, maraqlı tədbirlərə dəvət alıb siz məktəbli doslarla tanış oldum. Bildiyiniz kimi, 2024-cü ilin yanvar ayında görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi tamam olur. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı, M. Rahim adına 7 saylı tam orta məktəbin tərəfdaşlığı ilə "Açıq dərs - Açıq fikir" layihəsi çərçivəsində M.Ə.Rəsulzadənin 140 illiyinə həsr olunmuş “İnsanlara hüriyyət, millətlərə istiqlal” adlı bilik yarışması keçirilib. Bu çox maraqlı və şən bir tədbir idi. Mən və məktəbli dostlarım bu tədbirdə həm öyrəndik, həm əyləndik.

Dostlar, yuxarı sinif şagirdləri məktəbin foyesindən başlayan tədbirdə M.K.Atatürk, N.Nərimanov, F.Köçərli, M.Ə.Rəsulzadə, A.Hitler, S.Ümmügülsüm obrazlarının təqdimatında kompozisiya təqdim edərək, hər bir obraz haqqında müvafiq məlumatları əks etdirən kitab sərgisi nümayiş etdilər.

Maraqlı tədbirdə münsiflər heyətinin hər bir üzvü öz çıxışlarında məktəblilərə, iştirakçılara daha ətraflı məlumat verdikdən sonra belə tədbirlərin keçirliməsinin vacibliyini vurğuladı. Onu da qeyd edim ki, 8-ci sinif şagirdləri arasında keçirilən bilik yarışmasında iştirakçıların cavabları münsiflər tərəfindən qiymətləndirilməklə I yer üzrə qalib müəyyənləşdirildi. Heç bilirsiniz 1-ci yerə kim layiq görüldü? Əli Hacızadə. O mənim dostum, kitabxananın isə daimi oxucularındandır.



**Azərbaycançılıq demək,**
**istiqlalçılıq deməkdir!** *(M.Ə. Rəsulzadə)*



















# QALA

Zahirə Cabir

Məhəmməd Əmin uşaq olanda tez-tez atası onun əlindən tutub Xəzərin sahilinə gətirirdi. Ata dənizin gah susub, gah da danışan ləpələrinə saatlarla tamaşa edərdi. Məhəmməd Əmin isə balaca bir çubuğu balaca əlinə götürüb qumun üstündə şəkillər çəkərdi. Ona elə gələrdi ki, atası dənizlə söhbət edir. Hacı Ələkbər uzun-uzadı dənizə baxıb köks ötürərdi. Yalnız dalğalar kükrəyib şahə qalxanda Məhəmməd Əmin atasına yaxınlaşıb əlindən tutar, deyərdi ki, – “Ata, deyəsən dənizin dəliliyi tutub, gedək evimizə”.

Bir azdan qıpqırmızı Günəş tamam batacaq, Ay çıxacaqdı. Sonra ulduzlar görünəcək, qurbağalar quruldamağa başlayacaqdı. Cırcıramaların səsi aləmi başına götürəcəkdi. Dənizkənarı qayalıqların yuxarısından görünən Novxanı kəndinin bütün işıqları sönəcəkdi.

Zinyət ana yatağında xəstə yatırdı. Hacı Ələkbər axund idi, dünyanın gərdişini bilirdi. Quranı əlinə götürüb Yasin surəsini avazla oxumağa başladı. Oxuduqca gözlərindən yaş damlaları kitabın üstünə düşürdü.

Zinyət son dəfə balaca Məhəmmədə baxdı, gücünü toplayaraq onun başına sığal çəkdi. Sonra üzünü ərinə tutub baxışları ilə sanki imdad istədi. Başını azacıq qaldırdı, amma başı yastığa düşdü. Ata ananın açıq qalmış gözlərini qapadı. Oğlunun əlindən tutub bayıra çıxardı. Məhəmməd, – “Ata, mən anamın yanında qalmaq istəyirəm, heç yerə getmirəm” – desə də, atası onu bacısı Dostuxanıma tapşırdı. Sonra divardan asılmış xalçanı ordan endirdi. Xalça Hacı Ələkbərin nənəsindən yadigar qalmışdı. Zinyəti həmin xalçaya bükdülər. Kiriməkbilməyən uşaq həyətə qaçanda xalçaya bükülü cənazəni gördü. Sonra cənazəni məscidə apardılar. Məhəmməd anasının harasa aparıldığını, bir daha qayıtmayacağını sanki hiss edərək hönkürtü ilə ağlayırdı. Dərddən beli bükülən Ələkbər oğlunu belə gördükdə evin bir küncündə oturub xısın-xısın ağladı.

Bir il keçəndən sonra qohumlarının təkidi ilə Ələkbər ikinci dəfə ailə qurdu. Çox alicənab insan olan Maral xanım Məhəmmədə və bacısı Şəhrəbanuya sözün əsl mənasında ana oldu – onlara doğma övladları kimi baxdı.

Çox isti bir yay günü idi. Bu gün dəniz “gülür”dü. Xəfifcə isti külək əsirdi. Günəşin gözqamaşdıran parlaq şüaları dənizin yırğalanan zərif dalğalarında əks olunur, gümüş rəngə boyanan təbəssümü ilə mavi səmaya gülümsəyirdi. Qumlu sahilə çırpılan dalğaların şən şırıltısı ətrafa yayılırdı. Bu səs qəlbə rahatlıq gətirirdi.

Məhəmməd artıq səkkiz yaşındaydı. Bu gün analığı ilə dəniz sahilində idi. Maral ana divardakı xalçanı və yerdəki palazı dənizin kənarında yuyur, Məhəmməd isə qum və balıqqulağılardan qala tikirdi. Qalanı tikib qurtardı. Sonra parçanın bir qulağını cırıb balaca bir çubuğa bağlayıb qalanın lap təpəsinə sancdı. Kənardan tikdiyi qalaya xeyli vaxt tamaşa edəndən sonra anasına səsləndi: – “Anacan, bax, necə qala tikmişəm? Bu qalaya heç vaxt düşmənlər girə bilməyəcəklər. Bayrağı da ata bilməyəcəklər. Axı o, qalanın ən yüksəkliyində dalğalanır”. O, Məhəmmədə baxıb gülümsədi, başı ilə təstiqlədi, - “Möhkəm qalaya bənzəyir”, – dedi.

Maral xalça-palazı dənizin dalğaları döyən yerə sərərək xəkandazla dincəlmədən yuyurdu. Sanki xalçanı dənizin duzlu suyunda yuyurdu ki, bir daha ona kimsə bükülməsin. Bayaqdan xəfif əsən külək birdən dəliyə döndü, Məhəmməd Əminin düzəltdiyi qalanı uçurmaq istədi. O, sısqa bədəni ilə küləyin qarşısında durub düzəltdiyi qalanı qorumağa çalışdı. Küləyin qovduğu dalğalar sarı qum üzərinə tökülərək sahili ağ köpüklə örtür, köpük isti qum üzərində yavaş-yavaş yayılır, əriyir, sahili isladırdı.

Nəhayət, anası işini qurtardı. Məhəmməd anasına kömək etdi, yaş xalça-palazı taxta arabaya qoydular. Sonra kəndə sarı getməyə başladılar. Məhəmməd tez-tez dönüb arxaya – düzəltdiyi qalaya qürurla baxırdı. Qala yerində idi, külək onu uçura bilməmişdi.





# SEVİNC NURUQIZI 60

## Hekayələri dünyanı dolaşan uşaq yazıçımız




Harada uşaq varsa, orada günəş, ruh yüksəkliyi, səmimiyyət, sevinc, ümid olur. Uşaqları sevmək və onlar tərəfindən sevilmək gözəldir. Onlar yeganə varlıqlardır ki, böyük həssaslıqla insanı təmənnasız sevir və yüksək enerji verirlər. Həmçinin özlərinə olan münasibətdəki səmimiliyi də, saxtalığı da o qədər asan hiss etdirirlər ki...

Uşaq yazıçısı, şair, tərcüməçi, publicist, onlarla kitab müəllifi, uşaqların sevimlisi Sevinc Nuruqızı şanslı yazarlardandır. Uşaqlara bəxş etdiyi bir-birindən maraqlı kitablar onun məhsuldar ömür yolunun bəhrəsidir. Bu günlərdə uzun illər "Göy Qurşağı" uşaq jurnalının redaktoru olmuş dəyərli Sevinc xanımın yubiley yaşıdır. Biz də Köçərli ailəsi və oxucularımızın adından sevimli yazarımızı təbrik edirik!

Yazıb-yaratmağınız tükənməsin.Yazan əlləriniz, gözəl qəlbiniz var olsun uşaq qəlbli, səmimi, mehriban Sevinc xanım!

Doğum gününüz mübarək!

*Baş redaktordan*



*Mən sevginin gücünü və gözəlliyini anlatmağa Sem Makbratninin "Bilirsən, səni necə sevirəm..." hekayəsi ilə başladım... Körpə ürəklərdəki böyük sevgini nə ilə anladacağımı düşünəndə bundan ilıq və isti bir nümunə ağlıma gəlmədi. Sadəcə, düşündüm ki, bu hekayə SEVGİnin ƏLİFBAsı ola bilər.*

Sevinc Nuruqızı



### Salam, Sevinc xanım. Mən sizə anam barədə danışmaq istəyirəm. Yox, yox Melisa barədə...

Kitabxanada idim. Oxuduğum kitabı qaytarıb, yenisi ilə əvəzləyirdim. O isə rəngarəng rəflərdən mənə boylanan nəfis kitabların önündə durmuşdu. Melisa. Çəhrayı saçları kitabın üzərinə töklmüşdü. Nə gözəl dizayndır. Yaxınlaşıb yun saçlarını barmaqlarımla oxşamağa başladım, sanki bundan xoş olub mənə gülümsədi. Bir an körpə uşaq kimi qucağıma atıldı sanki Melisa, məni də götür deyə. Götürüb evə gəldim. Vərəqlədim. Ucadan oxumağa başladım. Oxuduqca özümdən uzaqlaşırdım, uzandığım çarpayını belə unudub, özümü böyük tor səbətin dəmir millərindən tutub alıcısını gözləyən Melisanın yanında, elə həmin tor səbətində hiss etdim. Bir nəfəsə oxuyurdum. Gözəl Melisanın ağrılı taleyi nitqimə süzülürdü sanki. Birdən anamın hıçqırtısını eşitdim. Dəməyəsən anam körpəlikdə dəcəl qız olub və o öz gəlinciyinə çox əziyyət veribmiş. Melisanın taleyi ona məhz öz gəlinciyini xatırlatdı. Anam kədərli səslə dedi ki, mən öz gəlinciyimin hay-harayını illər sonra eşidə bildim. Mən kitabı oxuyar-oxumaz o Melisanı çantasına qoydu və pıçıltısını eşitdim: "Sabah dərsdə bu kitabı mütləq şagirdlərimə oxuyacağam"... Sonrakı sözləri daha astadan dediyi üçün eşidə bilmədim. Axı anam müəllimədir.



Salam, Sevinc Nuruqızı, mən çox şadam ki, sizi tanıdım. Bilirsiniz haradan? Azərbaycanın paytaxtı Bakı şəhərində yerləşən sərgi mərkəzindən. Yəni, Bakı Ekspo Mərkəzindən. Mərkəzdə təşkil olunan sərgidə sizin "Pıçıltı" adlı kitabınızı gördüm. Gözəl illüstrasiya olunmuş kitabın üz qabığı məni özünə cəlb etdi. Yaxınlaşıb əlimə götürdüm. Üstündəki pişik, dovşan və mavi donlu gəlinciyin taleyi məndə maraq oyatdı. Çox xoşbəxtəm ki, mən bu kitabı oxudum. Mənfur düşmənlərimizin xalqımıza qarşı törətdiyi amansızlığı hər zaman görür və qınayırdıq, ancaq əminliklə deyə bilərəm ki, mən onun ağrısını bu qədər qəlbimdə hiss etməmişdim. Mən sanki Gəncə terroru zamanı günahsız qətlə yetirilən uşaqlar ilə birgə yaralanıb, onlarla uçurum altında qalıb, birgə həyata gözlərimi yumdum. Hər sətirdə müharibə o qədər canlı təsvir edilib ki. Terror və terrorçuları ürəkdən qınayıram. O kitabdakı bütün sətirləri, xüsusən Bozuşun Portağala sualı, "Terorist?... Terrorist hansı heyvandır, axı mən terrorist adında heyvan tanımıram. Terrorist vəhşi və yırtıcı insandır", sözlərini heç vaxt unutmayacağam.

**Sevinc xanım, Siz doğrudanmı duman pərilərini görmüsüz? Necə də xoşbəxtsiniz! Kaş mən də Şuşaya gedib onlarla görüşərdim. Zəfərimizi onlarla birlikdə paylaşardım.**

# Ağca və Cuppulu




***İkinci bölüm***

İllər ötdü… Sürəyya böyüdü. Orta məktəbi bitirdi. Ali təhsil aldı. İki uşaq anası oldu. Uzun illər boyu Vətən həsrəti ilə yaşadı. Gecələr yuxularında həmin o yamyaşıl yarpaqlar və çiçəklərlə əhatə olunmiş eyvanı olan evi gördü, sevimli Cuppulusunu əzizlədi, ağıllı Ağcasını sığalladı. Sonra elə yuxularındaca qəfil gurultu qopdu… Yer-göy titrədi. Düşmən yaşadığı kəndə hücum etdi. Eyvanında evcik qurub oynadığı ev dağıldı, parça-parça olub ətrafa səpələndi... Bapbalaca bir qızcığaz dağılan evin dəhşətli görüntüsünə baxıb acı göz yaşları tökdü. Dağıntılar altında qalan gəlinciyini kədərlə xatırladı.

Güllə səsləri altında o evin xarabalıqları arasından çıxıb başqa kəndlərə, şəhərlərə yol aldı… Yuxularında “Cuppuluuuuu… Ağca…”;, - deyib qışqıranda, dəfələrlə öz səsinə yuxudan ayıldı… Duran kimi də paltar dolabının ən üst qatında gizlətdiyi qutunu açdı, içindəki yumşaq, çəhrayı saçlı, solğun geyimli gəlinciyi götürüb baxdı, gülümsədi və dedi:”Biz mütləq bir gün öz yurdumuza qayıdacağıq, Cuppulu…”

...Düz 28 il keçmişdi. Bir gün telefonuna zəng gəldi:

– Alo, salam.

– Salam.

– Sürəyya xanımdır?

– Bəli, eşidirəm sizi.

– Sürəyya xanım, sabah jurnalistlərdən ibarət nümayəndə heyəti düşməndən azad olunmuş Ağdam şəhərinə yollanacaq. Sizi də onların arasında görmək istəyirik… Alo, alo, Sürəyya xanım… Alo...

Sürəyya ağlayırdı… Sevincindən. Azadlığa qovuşmuş yurduna səfər edəcəkdi. Azadlıq uğrunda gedən 44 günlük savaşın hər anını həyəcan və qürurla izləmişdi. Hər yeni kənd, şəhər azad olunanda Sürəyya paltar dolabının ən hündür rəfində gizlətdiyi qutunu açır, Cuppulunu .çıxardıb sinəsinə sıxır və deyirdi:

– Sevin, Cuppulu, Cəbrsyıl işğaldan azad olundu…

– Sevin, Cuppulu, Füzulu işğaldan azad olundu…

– Sevin, Cuppulu Zəngilan işğaldan azad olundu…

– Sevin, Cuppulu, Qubadlı azad olundu…

– Sevin, Cuppulu, Şuşa azad olundu…

– Ağdam azad olundu…

– Laçın…

– Kəlbəcər…

– Qarabağ bizimdir, Cuppulu… Qarabağ Azərbaycandır…

...Sürəyya sübh tezdən durmuşdu. Sözün doğrusu, sevindiyindən bütün gecəni gözünə yuxu getməmişdi. Uşaqları da erkən oyanmışdılar.

– Ana, bizi də aparacaqsan?..

***Ardı var***





Dünyaya bir
nağıl gətir

# Xarıbülbülün nağılı

***Aybəniz İsmayılova***

Biri vardı, biri yoxdu, uca dağın döşündə, sıldırım qayaların arasında gözəl bir çəmənlik vardı. Hər yay min bir rəngə boyanan bu çəməndə dünyanın ən gözəl çiçəkləri, ən ətirli otları, ən sehrli kolları bitirdi.

Yaz gələr-gəlməz bura dünyanın dörd bir yanından quşlar uçub gələrdilər. Gül-çiçəkli, rəngarəng çəməni həm də növbənöv quşların cəh-cəhi, səsləri, nəğmələri gözəlləşdirər, şənləndirərdi.

Çəməndə  qəribə bir çiçək vardı. O az qala bütün çiçəklərdən balaca idi. Onun gövdəsi qısa, tikanlı, yarpaqları incə, ləçəkli xırda və rəngi də solğundu.

Yazda çəmənə gələn bütün quşlar öz nəğmələrini böyük, rəngli, cazibədar çiçəklərin eşqinə oxuyurdular. Balaca çiçək isə boynunu büküb bir tərəfdə qalırdı.

Günlərin bir günündə hər bahar çəmənə gəlib nəğmələrini oxuyan quşlardan ən balacası – Bülbül bu çiçəyin boynunu büküb dayandığını gördü.

O, qonduğu yerdən uçaraq Çiçəyin yanına gəldi. Dimdiyində gətirdiyi bir damla şehi Çiçəyin yarpaqlarına səpib onu sərinlətdi. Çiçək Bülbülə gülümsədi və onlar dostlaşdılar.

O gündən Bülbül hər səhər Çiçəyin yanına gəlirdi.

Gecələr bəstələdiyi nəğmələri ona oxuyur, Çiçək isə heyranlıqla dinləyirdi.

Bülbül Çiçəyi ona daraşıb yarpaqlarını didən böcəklərdən, həşəratlardan qoruyurdu.

Uzun müddət yağış yağmayanda Bülbül uzaqlara uçub, ətrafdakı bulaqların, çayların şirin sularından dimdiyinə alaraq Çiçəyə gətirir, ona içirirdi.

Bülbüllə dost olandan Çiçək dirçəlmiş, gözəlləşmişdi. Ləçəkləri daha ətirli, yarpaqları daha parlaq, kökü daha möhkəm olmuşdu. Bülbü isə dost tapdığı üçün sevinir, diqqətini, sevgisini ondan əsirgəmirdi.

Bülbüllə Çiçəyin dostluğu başqa çiçəklərin, quşların, kolların, hətta Ayla Günəşin də diqqətini çəkmişdi. Bu dostluğa hamı heyran olmuşdu.

Onların dostluğuna sevinməyən təkcə qəddar, qorxunc Qara Külək idi. O, həddən artıq özündənrazı, təkəbbürlü idi.

Əsməyə başlayanda Yer üzündəki bütün canlıların qorxduğunu, büküldüyünü, əyildiyini görmək istəyirdi. Hamını öz qarşısında əymək onun xoşuna gəlirdi.

Bir gün Qara Külək əsəndə bütün çiçəklərin, kolların, hətta ağacların büküldüyünü, qorxudan tir-tir əsdiyini gördü. Öz gücündən arxayın halda coşarkən qəfildən fərqinə vardı ki, çəməndə ona məhəl qoymayan bircə Çiçəkdir.

Qara Külək bir Çiçəyə baxdı, bir onun balacalığına, qısa boyuna, nazik saplağına, xırda ləçəklərinə baxdı; bir də başqa, daha iri, daha güclü gül kollarının titrəməyinə, bükülməyinə baxdı. Gücünü bir az da artırdı. Amma gördü ki, Çiçək bu gücün fərqində belə deyil. Çiçəyin bu davranışı Qara Küləyi bərk qəzəbləndirdi. O, qəzəbindən daha bərk əsdi. Amma Çiçəyə yenə də təsir edə bilmədi.

Qara Külək gəlib Çiçəyin başı üstündə dayandı.

- Ey, sən kimsən və mənim gücümdən niyə əsmirsən? Niyə əyilmirsən?..

***Davamı gələn sayımızda***








**ƏZİZ DOSTLAR!**

**Bildiyiniz kimi, mən oxumağı çox sevirəm. Çox vaxt kitabxananın kitab rəflərində maraqlı kitablar axtarıram. Baxın, görün nə tapmışam. Necə maraqlı və rəngarəng kitabdır!**

...Когда-то, в очень далекие времена, как говорили в старину, чуть ли не на краю Земли жил-был очень веселый трудолюбивый народ. Своим неуемным, благородным, созидательным трудом он очень походил на пчелок. Но, к сожалению, жители этого сказочного места имели недостаток, о котором даже сами не догадывались. Они вовсе не просвещались. Люди трудились с утра до ночи не разгибая спины, но ничего о мире не знали...

- Меня зовут Неделя. Та самая, о которой ты поешь каждый день.

- Так ты птица?

- Ха, ха, ха, - рассмеялась птица. А прилетела я, чтобы помочь твоему народу. Когда-то, очень давно, люди знали обо мне и о шести моих дочерях. Все вместе мы зовемся Неделей.

- А кто такие твои дочери? Тоже птицы?

- Нет, милая. Они мои дочери, а их отец – Месяц, который велел нам 4 раза приходить к людям, после чего он в разных обличиях и с новыми именами являлся сам, чтобы сделать жизнь людей интересней и ярче...

Неделя с дочерьми обернулась в птиц, которые вознеслись в небо, нарисовав напоследок в небе радугу из 7 цветов, как вечное напоминание о себе, семи красивых птиц...

...В фиолетовом небе по одному гасли ночные звезды, унося с собой былые воспоминания жителей о невежестве. Люди пробуждались. Каждый из них был счастлив, что живет в радости, любви, трудах и бесконечном стремлении к познаниям. И лишь одна девушка, проснувшись, знала ,что все это происходило не во сне. Она с восхищением посмотрела на золотисто-голубое небо и мило улыбнулась радуге, воспоминания о щедрости Недели, что подарила ей молодость и возможность начать все сначала.

... Дорогие дети! Неустанно стремитесь к знаниям, дорожите каждым днем, ведь они пролетают так же стремительно, как птицы!... Она смотрела в окно с улыбкой на лице и была уверена, что отныне все люди будут счастливы!...

**ТАГИРОВА МЕХРИБАН**

**Прочитал новую книгу – встретился с другом, ждем в библиотеке!**



# Toby and the Talking Trees



Toby and the Talking Trees: Once upon a time, in a magical forest, there lived a little boy named Toby. Toby loved to explore the woods and play among the tall trees every day after school. One sunny afternoon, while Toby was skipping along a path, he heard a soft voice calling out to him.

"Hello, Toby!" the voice said.

Toby stopped in his tracks and looked around, wondering where the voice was coming from. To his surprise, he saw that the trees were moving and talking to him!

"Wow! Trees can talk?" Toby exclaimed, eyes wide with amazement.

"Yes, we can," replied an old oak tree with a friendly smile on its bark. "We have watched over this forest for many years and have seen many things."

Toby was thrilled and eager to chat with the trees. He asked them about their lives, the animals in the forest, and the secrets they held. The trees shared stories of the changing seasons, the importance of kindness, and the beauty of nature.

As Toby spent more time with the talking trees, he learned valuable lessons. One day, he saw some other children throwing litter in the forest. Toby remembered what the trees had taught him about taking care of nature.

"Hey, stop that!" Toby shouted, running toward the kids. "We must keep our forest clean and beautiful for the trees and animals!"

The children stopped and listened to Toby. They realized their mistake and joined Toby in cleaning up the litter, making the forest sparkle again.

The trees were delighted by Toby's bravery and kindness. They whispered amongst themselves, "Toby, you have shown that even the smallest person can make a big difference."

From that day on, Toby became a guardian of the forest. He made sure to protect it and teach others about the importance of caring for nature.



## Kitab oxucu su axtarır

### *Kitab*

*Xanımana Əlibəyli*

**İnsanlar çəkdi zəhmət,**
**Günü-günü qatdılar**
**Dünyada gözəl nemət**
**Kitabı yaratdılar.**

**Neməti təbiətin**
**Gün kimi işıq açdı.**
**Həyatda hər sənətin**
**Sirrini bizə açdı.**

**O hər zaman cavandır**
**Yaşı ötsə də mini,**
**Bizə neçə zamandır**
**Öyrədir Nizamini.**

**Çevrilib çox dillərə**
**Sanki sirrdir hər biri,**
**Yol tapıb könüllərə**
**O sevdirdi Sabiri.**

**Durub iki qəhrəman**
**Dolabda qoşa-qoşa.**
**Baxır cürətli Cırtdan**
**Cəsarətli Qavroşa.**

**Kitab sanki bir quşdur,**
**Mizin üstə qonmuşdur.**
**Kitaba salsan meyil**
**Səndən ayrılan deyil.**



**Kitab nə haqqındadır?**

Uşaqlara kitabxanaya gələn yeni, oxumadıqları bir kitabın illüstrasiyalarını göstərin. Sonra onlardan əsərin nədən bəhs etdiyini soruşun. Ehtimalı daha düzgün olan oxucunu alqışlarla mükafatlandırın.

### "Kitabın adını tap"

Uşaqlara bir nağıl danışın. Məsələn, "Axmaq canavar". Sonra "Nağılın adını tapın"- deyə uşaqlara müraciət edin. Adı düzgün tapan oxucuya kitab və ya jurnal hədiyyə edin.

### Kitabla gizlənpaç

Uşaqlara yeni bir kitab göstərin (bərk üzlü olmalıdır) və uşaqlardan gözlərini yummalarını xahiş edin. Kitabı qrupda bir yerdə gizlədin. Uşaqlar onu axtarmaqdan məmnun olacaqlar. Kitabı tapan uşaq onu oxumaqla mükafatlanacaq.

### Biz nağıllar uydururuq

Uşaqlarınızla bir dairədə oturun və öz nağılınızı yaratmağa çalışın. Məsələn, əlinizə bir oyuncaq dovşan götürün və nağıl danışmağa başlayın: "Bir gün balaca dovşan Ağca özünə dost tapmaq istədi." Bunu dedikdən sonra dovşanı növbəti uşağa verin. O, nağılı davam etdirməlidir, məsələn: "O, anasından icazə alıb dost tapmaq üçün səfərə çıxdı." Növbəti uşaq dovşanı qucağına alır, əlavə fikirlər söyləyir və s. Əgər nağıl uğurlu olarsa, onun əlyazma kitabını uşaqlarla birlikdə hazırlaya bilərsiz: mətni yazın, uşaqlar isə şəkillər çəksin.

### Yanlış nağıl

Uşaqlara bildikləri bir nağılı, məsələn "Turp" nağılını səhv danışırsınız. Məsələn, turpu balqabaqla əvəz edirsiniz: "Baba balqabaq əkdi. O yetişdi və çox, çox böyük oldu. Baba balqabağı çıxartmağa başladı, amma gücü çatmadı. Baba dostuna zəng vurdu... və s." Uşaqlar diqqətlə dinləməli və səhvləri düzəltməklə , düzgün nağılı söyləməlidirlər.

### Nağılı bitir

Siz uşaqlara bildikləri bir nağılı, məsələn, "Qoğal" nağılını ortasına qədər danışırsınız. Ardını isə uşaqlar özləri fikirləşib söyləməklə nağılı bitirirlər. (məsələn, tülkü Qoğalı nənə və babasından qaçdığına görə danlayıb evlərinə apardı).

### Mən hansı nağıldanam?

Bir oyuncaq, məsələn, tülkü uşaqların qarşısına çıxır və uşaqlardan soruşur: "Uşaqlar, mən bir kitabdan düşdüm və indi haradan gəldiyimi bilmirəm. Hansı nağıldan olduğumu mənə söyləyin?" Uşaqlar tülkü ilə bağlı bildikləri nağılların adlarını söyləyirlər: "Tülkü və ilan", "Tülkü və kəklik", "Tülkü və Hacıleylək" və s.



# Yeni kitablar bizim rəfimizda

*Mütaliə insanları bilikli, söhbətcil və hazırcavab edir.*
*Frensis Bekon*




Bu kitab uşaqların inkişafına oyun və əyləncə ilə dəstək olacaq. Kitabın uşaqlara faydaları: diqqətin inkişafı, əl-göz koordinasiyası, təqlid bacarığı, az-çox və böyük-kiçik qavramı, komandaları yerinə yetirmə, gördüyünü yadda saxlama, fəsillər barədə ilkin anlayış.




İqlim nədir? Yer planetinin iqlim qurşaqları necə yaranıb? İqlim canlılara necə təsir göstərir? Azərbaycan hansı iqlim qurşağında yerləşir? İqlim dəyişməsi nəyə səbəb olur? Siz bütün bu suallara cavab tapacaq və coğrafi biliklərə yiyələnəcəksiniz.

## *Kitabın dostu*

Ələmdar Quluzadə

Sınağa, imtahana
Kitablar sinə gərir,
Görmədiyin dünyanı
Kitab sənə göstərir.
Kitab kimini şair,
Kimini alim edib.
Sənin müəllimini
Kitab müəllim edib.
Kitabın min sirri var
Sənə deyim birini,
Kitab oxumayana
Kitab vermir sirrini.
Kitabla dostluq edən
Dostunu düz tanıyır,
Kitab öz dostlarını
Hamıdan tez tanıyır.






Heç dişinin çəkilməsindən qorxmayan uşaq haqqında eşitmisinizmi? Bəlkə də, fikirləşəcəksiniz ki, belə uşaq ola bilməz. Əziz isə bilir ki, bir az ağrısa da, çürük dişin çəkilməsi onun sağlamlığı üçün vacibdir. O, klinikada qəribə xüsusiyyətlər, oxşarlıqlar tapır, dişlərinin köpəkbalığının dişlərinə oxşadığını, ikicərgəli olduğunu öyrənir.




Bu kitabda oxucular qəhrəmanımız Lano ilə birlikdə doğma torpağa, xalqa bağlılığın vacibliyini anlayacaq, mərhəmətin düşmənçilik toxumlarını məhv edərək sülh yaratdığını öyrənəcək, sonsuz şəfqətdən doğan gücün, heyvanla insanın böyük dostluğunun şahidi olacaqlar.




Aslan doğulduğu gündən indiyədək eyni meşədə yaşayırdı. Artıq başqa yerlərə gedib, dünyanın ən gözəl ölkəsini görməyin vaxtı çatmışdı. Bəs dünyanın ən gözəl ölkəsi haradır? Dedektiv (axtar, tap, işarələ) Bu kitab məktəbəqədər uşaqların təyinetmə, diqqət, vizual qavrama və fərqləndirmə bacarıqlarının inkişafını dəstəkləmək üçün hazırlanmışdır.

Bu kitabın içindəki qəhrəmanlar sehrli görsənə bilərlər. Buradakı obrazlar səninlə dost olmağa gəliblər. Səni maraqlı səslər dünyasına dəvət edirəm. Burada sənin kimi minlərlə uşağın səsi var. Eşitməyə hazırsanmı?







Bu kitabda hamımızın yaşadığı gündəlik həyat azyaşlı oxuculara sadə dildə, eyni zamanda, əyləncəli üsulla təqdim edilir. Bu kitabda Tuncay gününü necə keçirdiyi, gün ərzində gördüyü işlər haqqında maraqlı məlumatlar verir.



# Pikasso

## Hekayələr dəryası

*Cenn Diaz*

Papa. “Papa” ispanca “ata” deməkdir. Bir çox uşaqlarda olduğu kimi, Pablo Ruiz Pikassonun ilk sözü sanki uşaqlıq həyatının bütün qapılarını taybatay açan sehrli açar idi. Uşaqlıqdan o, boyalarla rəsm çəkməyi sevən atasını təqlid etməyə başladı. Atasının sehrli rənglər, rəsmlər dünyasına düşən Pablo tanımadığı 7 rəqəmini belə üzüaşağı çevrilmiş burun kimi görürdü. Pikasso 8 yaşında ilk ciddi əsəri olan “Pikador”u yaratdı və bütün ömrü boyu saxladı. O, 13 yaşında ilk dəfə yağlı boya ilə rəsm çəkdi. Elə bir yaşda idi ki, bu yaşda olan hər bir yeniyetmə oğlan kimi onun da həyatında ən vacib şey baş vermişdi: Pablo aşiq olsa da, bu qısa çəkdi. Amma sevgi hissi onu aramsız olaraq düşüncələrini və duyğularını kətan üzərinə köçürməyə ilhamlandırırdı. Hətta bu yaşında belə özünəməxsus rəssamlıq duyğularını ifadə etməyi bacarmışdır. Hər bir yaxşı sənətkar hansı boyalarla, fırçalarla işləyəcəyini bilmək üçün hələ yeniyetmə yaşlarında özündən xeyli yaşlı və təcrübəli rəssamlar kimi əsərlər yaradan Pikassonun yaradıcılığını öyrənməlidir.

Pikasso La Korunyada incəsənət məktəbində təhsil alırdı, 13 yaşındaykən ailəsi Malaqa şəhərindən Barselonaya köçdü, o, incəsənət məktəbində oxumağa, bu sənəti dərindən öyrənməyə başladı. Artıq rəssam kimi məşhurlaşan Pikasso birbaşa yuxarı sinfə qəbul edildi. Sinif yoldaşlarının əksəriyyəti ondan yaşca daha böyük olsalar da, özünəməxsus rəssamlıq texnikası və xüsusi qabiliyyətlə əsərlər yaradan yeniyetmə onları çox təəccübləndirdi. Bir il sonra Pikasso ailəsindən ayrılmaq məcburiyyətində qaldı, Pablo bu dəfə daha nüfuzlu San Fernando Kral İncəsənət Akademiyasında təhsilini davam etdirmək üçün Madridə yollandı.

## *Rəssam olmaq*

San Fernando Kral İncəsənət Akademiyasında oxumaq çətin olsa da o, yüksək qiymətlər alırdı. Pikasso incəsənət məktəblərində gənc rəssamların ənənəvi olaraq öyrəndikləri klassik rəsmlərdən imtina etməyə başladı. Hətta atasının yaradıcılığının kölgəsi altında çalışmaq istəmədi, həyatında ilk dəfə atasının tapşırdığı işi dayandırdı. Öhdəçilikdən, ürəyincə olmayan tapşırıqlardan, lazımsız məsuliyyətdən və sinif yoldaşlarının tənələrindən canını qurtarmaq məqsədilə, nəhayət, akademiyanı tərk etdi.

Barselonaya 1898-ci ildə qayıdandan sonra o, yaşayışını təmin etmək üçün sifarişlə rəsm əsərləri və plakatlar çəkməklə məşğul olurdu. Rəssamların toplaşdığı “Dörd pişik” adlı məşhur kafedə o, yaxşı rəssamlıq qabiliyyəti olan Karlos Kasagemas, Hayme Sabartes kimi çox istedadlı insanlarla dostlaşmış, incəsənət aləminə daxil olmuşdu. Həmkarları ilə incəsənət mövzusunda müzakirələr aparan Pikasso böyük rəssam kimi tanınsa da, hələ də yetkin yaradıcılığın sehrli sirlərini açmaqda uğur qazana bilməmişdi.

O, sənət yetkinliyinə çatmamışdan əvvəl ilk sərgisini hazırlamışdı. Hətta rəsmlərinə çərçivə almaq üçün kifayət qədər pulu olmadığından yoldaşları ona köməklik etdi. Sanki uşaqların çarpayıları altında gizlənən qorxunc məxluqlar kimi peyda olan tənqidçilər Pikassonun rəsmlərinin incəsənət qanunlarına uymayan və səliqəsiz olduğunu söyləyirdilər. Bütün tənqidlərə baxmayaraq, növbəti çox mühüm sərgi üçün onun rəsm əsərlərindən birini seçmişdilər.

Parisə yol görünürdü. Bu şəhər də bir rəssam kimi onun dünyagörüşünü dəyişdirdi, zənginləşdirdi. Paris onun gözləri önündə əvvəllər bilinməyən həqiqətləri açdı. Pablo Parisdə Mone, Renuar, Deqa, Mane, Delakrua və digər rəssamlarla birgə çalışaraq mənəvi qida alırdı.







Mən rəsm çəkməyə başlayanda sanki başqası mənimlə işləyir. Amma işin sonunda özümü köməkçisiz, tək işlədiyimi hiss edirəm.

Rəssam satıla bilən bir şey yazan adamdır. Yaxşı sənətkar isə yazdıqlarını satır.



# MƏNİM RƏNG DÜNYAM





Aysu Babayeva
ART Studio AR



Atilla Piriş
İncəsənt Gimnaziyası



Murad Pirişov
İncəsənt Gimnaziyası



Atilla Piriş
İncəsənt Gimnaziyası



Vəfa Novruzlu
ART Studio AR



Rəna Nəcəfova
167 saylı məktəb



Rəna Nəcəfova
167 saylı məktəb



Murad Pirişov
İncəsənt Gimnaziyası



Atilla Piriş
İncəsənt Gimnaziyası



Rəna Nəcəfova
167 saylı məktəb

"Şəkil çəkmək səssiz poeziyadır, poeziya isə danışan şəkildir." (Plutarx)



Rəna Nəcəfova
167 saylı məktəb

Nə gözəl mənzərədir
Fəsil harmoniyası.
Canlı əsərdir, sanki
Bu təbiət dünyası.

Əsər nəğmə söyləyir
Növbəylə fəsillərə.
Fəsillər qulaq asır,
Söylənən nəğmələrə.

Hər fəsildə bir rəng var
Rənglər könül oxşayar.
Bu gözəl mənzərəni,
Yaradan Tanrımız var.

**Aytac Mübarizqızı
(Babayeva)**

# Laçın yatağıdır bizim məkanlar...

## *26 Avqust Laçın şəhəri günüdür*

Salam, bu mənəm, İncəhörüm. Yenidən görüşünüzdəyəm. Heç bilirsiniz bu günlərdə haraya yollanmışdım? Laçına. Bəli vətənimizin dilbər guşələrindən biri olan Laçın rayonuna.

Dostlar, dünyada nə qədər ölkələr var. Dünyanın ən görkəmli alimləri xəritədə bizim torpaqlarımıza "Avropanın ən qədim insan sakinləri" adı veriblər. Belə qədim diyardan biri də Laçın rayonudur.

Ötən günlərdə Laçın şəhərinin salınmasının 100 illiyi (1924-2024) keçirildi. Tədbirdə Azərbaycanımızın hər guşəsindən gələn qonaqlarla yanaşı, F.Köçərli adına Respublika Uşaq Kitabxanası da iştirak edib.

Laçın abidələri hələ eramızdan əvvəl I–II minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər dəyərli və nadir abidələrdəndirlər. Laçın əvvəllər Abdallar adlanıb, 1923-cü ildən şəhər statusu alıb və 1926-cı ildən Laçın adlandırılıb. Laçın əsasən dağlıq rayondur. Ən hündür nöqtəsi Qızılboğaz dağıdır (3594m). Həkəri çayı isə könülləri şad, gözləri valeh edir.

Biz qalib dövlətin qalib xalqıyıq. 44 günlük haqlı savaşımızda Laçın rayonunu da azad etdik. Əminəm ki, siz nənə - babalarınızdan bu 30 ildə

*Çöllərə qırov düşdü,*
*Xəyalıma ov düşdü.*
*Laçının həsrətindən*
*Qanıma alov düşdü...*

bu kimi bayatıları çox eşitmişdiniz. Bu gün isə hər kəs sevinc və qürurludur. Laçın bizimdir! Qarabağ Azərbaycandır!







# Laçın bizimdir

***Elvin Elxanoğlu***

Şükr Ulu Tanrım bu günü gördük,
Qartalın yarası bu gün sağaldı.
Xoş gəldin Laçınım,səni xoş gördük,
Sənsiz günlərimiz geridə qaldı.

İllərin həsrəti bitdi sonunda,
Bugündən qartalım qanadlanacaq.
Nəhayət Laçının səmalarında,
Üç rəngli bayrağım dalğalanacaq.



# “Suraxanı” tanker muzeyi

**Dünyanın ilk neft tankerinin 1879-cu ildə Bakıda istifadəyə verildiyini bilirdinizmi? Budur, daha bir maraqlı fakt: uzun illər sonra dünyanın ilk muzey tankeri Xəzər dənizinin sahilində, Bakı bulvarına yanaşaraq dayandı.**

## Muzeyin yaradılması

Son dövrlər Gəmiçiliyin tərkibində neft təmizləyici stansiya qismində istismar edilən “Suraxanı” tankerinin muzeyə çevrilməsi ilə bağlı qərar 2017-ci ildə verilib.

“Suraxanı” tankerinin muzeyə çevrilməsi üçün Böyük Britaniya, Hollandiya, Türkiyə kimi gəmiçilik ənənələri olan ölkələrin bu sahədə böyük təcrübəsindən istifadə olunub. Gəmi-muzeyin Beynəlxalq standartlara cavab verməsi məqsədilə 100-dən çox nüfuzlu xarici və yerli şirkətlə əməkdaşlıq edilib.

Muzeyin zallarında ən müasir texnoloji avadanlıqlardan istifadə edilməklə, bir sıra innovativ yenilikərə imza atılıb. Ziyarətçilər burada Xəzərin tarixi, Abşeronda neft hasilatı, gəmiçiliyin inkişafı, dünyada ilklərdən sayılan gəmilər, dəniz nəhəngləri, gəmiçiliyin ayrılmaz atributlarından olan naviqasiya alətləri, 5000 ilə yaxın tarixə malik dəniz düyünləri, gəmilərin istismarı zamanı istifadə edilən avadanlıqlarla yaxından tanışlıq imkanı qazanacaqlar.







## “Malakafauna” zalı

Tanker-muzeyin maraqlı ekspozisiyalarından biri isə malakofauna, mərcanların və digər flora və fauna nümunələrinin sərgiləndiyi guşədir.

Okean və dənizlərdən yığılan kolleksiya ziyarətçilərin böyük marağına səbəb olacaq.

## “Yükdaşıma” zalı

Ziyarətçilər modeldən istifadə edərək konteynerin yükləmə-boşaltma əməliyyatını həyata keçirə, dünyanın ən böyük konteynerdaşıyan gəmisi - "OOCL Hong Kong"un modeli ilə tanış ola bilərlər. Burada müasir Ələt limanının tikintisi mərhələli şəkildə əks etdirilib. “Neft divarı” instalyasiyasında Abşeronda neft hasilatının tarixi, interaktiv eksponat vasitəsilə isə neftin tankerə yüklənməsi-boşaldılması əməliyyatının müxtəlif üsulları ilə tanış ola bilərsiniz.






## “Gəmilər və Gəmiçilik” zalı

Bu zalda sizi "Suraxanı" gəmisinin uzunluğu 5 metrə çatan modeli gözləyir.

Zalda Azərbaycanda olan gəmilərin, həmçinin Xəzərin və dünya okeanının əfsanəvi gəmilərin modelləri təqdim edilir.

Siz həmçinin məşhur dəniz düyünlərini iplərdən istifadə edərək bağlamağı və Morze əlifbasından istifadə edərək məlumat ötürməyi öyrənə bilərsiniz. Virtual reallıq eynəklərindən istifadə edərək, gəmi heyətinin iş həyatına şahidlik etmək imkanınız olacaq. Uşaqlar isə müxtəlif dəniz oyunlarını oynayaraq əylənə bilərlər, o cümlədən gəmini manevr etmək və yanarma yollarını öyrənmək. Onlar həmçinin XVIII-XX əsrlərə aid gəmiçiliklə bağlı nadir eksponatlara toxunmaq, Azərbaycanın və dünyanın ən böyük gəmilərinin maketlərini görməkdə maraqlı olacaqlar.

Gəmidə ən maraqlı yerlərdən biri də Suraxanı briqadasının keçmiş yaşayış məntəqələri və kayutlarıdır, burada hər şey 60-cı illərdə olduğu kimi qalır. Onilliklər əvvəl neft tankerində istifadə olunan məişət texnikası və əşyaları görmək, gəminin fəaliyyəti üçün ən vacib yerlərdən biri olan kapitan körpüsünə, habelə naviqasiya, mühərrik və radio otaqlarına baş çəkmək sizi valeh edəcək.

Tankerin göyərtəsindən Xəzər dənizinə və Bakı şəhərinin özünə heyranedici mənzərə açılır.











# DÜNYA TOXUM ANBARI

Maraqlı və öyrədici

Toxum anbarının Şpitsbergen üzərində qurulması təsadüfi deyil. Əgər qlobal bir fəlakət baş verərsə və məlum bitki növlərini bərpa etmək lazım olarsa, o zaman Şpitsbergenə, yaxud norveçlilərin dediyi kimi, Şvalbarda getmək lazımdır. Svalbard Norveç Krallığının ən şimal hissəsində, Şimal qütbündən cəmi 1125 km aralıda yerləşir. Toxum anbarının özü isə Şpitsbergenin paytaxtında, beynəlxalq hava limanından uzaq olmayan Logier şəhərində yerləşir. Anbar qayanın 120 metr dərinliyində və dəniz səviyyəsindən 130 metr yüksəklikdə yerləşir. Toxum anbarının dəniz səviyyəsindən bu qədər yüksəklikdə və eyni zamanda belə dərinlikdə yerləşməsi yaxın gələcəkdə əbədi buzlağın əriməsi şansının olmaması səbəbindəndir. Anbar partlayışa davamlı qapılar, hava kilidi kameraları, hərəkət sensorları və nüvə başlığına və ya zəlzələyə tab gətirə bilən 1 metr qalınlığında dəmir-beton divarlarla təchiz olunub. Anbara girmək üçün birləşmə kilidləri olan beş qapıdan keçmək lazımdır.

Toxumlar -18°C sabit temperaturda saxlanılır və alüminium falqaya bənzəyən möhürlənmiş torbalarda qablaşdırılır. Toxum torbaları saxlama anbarının içərisində yerləşən rəflərə yerləşdirilir. Beləliklə, oksigenin məhdud çıxışı və aşağı temperatur toxumların həyat qabiliyyətini yaxşı qoruyur.

Anbarda olan toxumlar demək olar ki, əbədi saxlanıla bilər.
















Toxumların saxlama müddəti onların növündən asılıdır. Məsələn, noxud öz həyat qabiliyyətini yalnız 20-30 il saxlaya bilir, günəbaxan və bəzi taxıl növlərinin toxumları isə uzun onilliklər və hətta əsrlər boyu bunu edə bilir. Ancaq yenə də tədricən həyat qabiliyyətini itirirlər və ölürlər. Bunun qarşısını almaq üçün toxumların bir hissəsi xüsusi konservləşdirilmiş nümunələrdən götürülərək torpağa əkilir. Beləliklə, onlar həmin qablarda cücərir və köhnə toxumların yerində yenidən istehsal edilir. Bu prosedurdan sonra toxumların saxlanması əbədi olur.

Anbarda 4,5 milyon müxtəlif növ toxum nümunəsi yerləşir.

Hər bir bitki növünün 500 toxumdan ibarət nümunəsi anbarda saxlanılır. Beləliklə, 2,25 milyard fərdi toxum nümunəsi dünyanın ən böyük qlobal toxum bankında yerləşdirilir. Hazırda depoda dünyanın demək olar ki, hər bir ölkəsindən 860 min nümunə var.

Anbara ilk növbədə qida üçün istifadə olunan bitkilərin toxumları göndərilir. Bu, qida təhlükəsizliyinin təmin edilməsi baxımından çox vacibdir. Həmçinin, çeşidlərin müxtəlifliyini də nəzərə almaq lazımdır. Məsələn, dünyada 100 minə yaxın düyü növü var. Qida toxumlarının ilk növbədə saxlama anbarına köçürülməsinin səbəblərindən biri də budur.

Toxum anbarı gen bankı deyil - bu, həm də zəmanət anbarıdır.

Burada müxtəlif bitki sortlarının dublikat toxumları saxlanılır. Gələcəkdə ilkin fondlarda saxlanılan toxumlar itərsə, buradan dublikat götürmək mümkün olacaq. Toxumları saxlanmaq üçün təhvil verən tərəf mülkiyyət hüququnu özündə saxlayır. Nə Norveç səlahiyyətliləri, nə də Svalbarddakı qlobal toxum anbarı əmanətçinin icazəsi olmadan anbar fondlarına girə bilməz.

Toxumları ilk olaraq anbara göndərən Afrika ölkələri oldu. 36 Afrika ölkəsindən ilk yeddi min nümunə Norveçə göndərildi. Bundan sonra Kolumbiya, Efiopiya, Hindistan, Keniya, Meksika, Peru, Filippin və Suriyadan milli toxum bankları kolleksiyalarını göndərməyə başladılar.

# SÖZ TAP - SÖZ OYUN VƏ KROSSVORD



*Sual da, cavab da biliklərdən doğulur.*

Cəlaləddin Rumi

# Raku İnouenin gözəl çiçək və yarpaq əsərləri

Çiçək rəssamı

Mənim böyüdüyüm Yaponiyada həşəratlar çoxdur. Hər zaman anam və nənəm məni parka aparır, kəpənəklər və böcəklər axtarırdıq.



Bir gün rəssam Raku İnoue güclü küləyin həyatındakı qızılgül kolunun çəhrayı ləçəkləri uçurduğunu gördü. Onu ilhamlandıran bir fikir yarandı: ləçəkləri bir kağız parçasına böcək şəklində düzdü. Ayaqları üçün nazik yaşıl budaqlardan istifadə etdi. Bitirdikdən sonra İnoue bitki hissələri qurumadan bu işinin şəklini çəkir. Bundan zövq alan İnoue işini davam edir.





İşinizdə bitkilərin hansı hissələrini istifadə etməkdən daha çox zövq alırsınız?
Yastı ləçəklərlə, məsələn, qızılgül ləçəkləri ilə işləməyə üstünlük verirəm. Zanbaq və səhləblərin əyri ləçəklərindən daha asan forma verirlər. Zaman keçdikcə işlədiyim materiallar haqqında daha çox öyrənəli oldum.





Heyvan heykəllərini necə yaradırsınız?
Pələng kimi daha mürəkkəb heyvanlar üçün əvvəlcə heyvanın anatomiyasını və ya bədən quruluşunu öyrənirəm. Mən plastik köpükdən skelet düzəldirəm. Skeleti suda isladılmış süngər kimi bir təbəqə ilə örtürəm. Sonra çiçəkləri və bitki materiallarını süngərə daxil edirəm. Bu, onları daha uzun müddət təzə saxlayır.



Bir gün dünyanı gəzəcəyəm və getdiyim hər ölkə üçün bir sıra çiçək və böcəkləri hazırlayacağam. Sadəcə imkanlar haqqında düşünmək məni həyəcanlandırır! Axı bu, mənim həyatımdan istehsal edə biləcəyimdən qat-qat çoxdur.









Babam erkən dünyasını dəyişmişdi. Hər dəfə evə cırcırama uçanda nənəm deyirdi: "Bu sənin babandır, bizi ziyarət edir!"
Həşəratların mənim üçün həmişə simvolik mənası olub.









Düşünürəm ki, bu gül heykəllərinin canlı görünməsinin əsas səbəblərindən biri mənim üzvi materiallardan istifadə etməyimdir. Beynimiz çiçəkləri canlı varlıqlar və onlardan gələn hər şeyi avtomatik olaraq qəbul edir.









Oxuduqca hər gün gördüyünüz bitkilərdən hansı sənəti yarada biləcəyinizi düşünün.